# DÖVLƏT NƏZARƏTİ İNFORMASİYA SİSTEMİ: İDARƏÇİLİK İSLAHATLARINA RƏQƏMSAL DƏSTƏK

Coşqun CƏFƏROV,
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi,
Səmərəliliyin Qiymətləndirilməsi
Departamentinin analitiki

# Dövlət Nəzarəti İnformasiya Sistemi: İdarəçilik islahatlarına rəqəmsal dəstək

Coşqun CƏFƏROV,
İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi,
Səmərəliliyin Qiymətləndirilməsi Departamentinin analitiki

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Dövlət Nəzarəti İnformasiya Sistemi"nin yaradılması haqqında Fərmanı ölkədə həyata keçirilən idarəçilik islahatlarının səmərəliliyinin artırılmasına, eləcə də dövlət nəzarətinin daha da gücləndirilməsinə təkan verəcək. Layihə və proqram idarəetməsinin tərkib hissəsi olaraq həyata keçirilən işlərin effektivliyinə nəzarət icra prosesində diqqət mərkəzində olan əsas faktorlardandır. Müasir çağırışlar fonunda dövlət idarəetməsində nəzarət prosesinin asanlaşdırılması və texnoloji yeniliklərin dövlət nəzarətinin həyata keçirilməsinə tətbiqi xüsusi əhəmiyyət daşıyır.

Yaradılacaq Dövlət Nəzarəti İnformasiya Sistemi səmərəlilik, istifadə rahatlığı, çeviklik prinsiplərinə əsaslanmaqla idarəetmə və nəzarət prosesinin koordinasiyasına imkan verəcək. Dövlət Nəzarəti İnformasiya Sistemi 8 müxtəlif altsistemdən ibarət olmaqla nəzarət prosesinin modulyar əsasda həyata keçirilməsini təmin edəcək. "Tapşırıqlar" altsistemi tapşırıqların icra vəziyyəti ilə bağlı barədə məlumatların emalını və qiymətləndirilməsini nəzərdə tutur. İnformasiya sisteminin "Əsas Səmərəlilik Göstəriciləri" altsistemi yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin səmərəlilik göstəriciləri əsasında qiymətləndirilməsini təmin edir. Bu, yerli icra orqanları arasında rəqabət mühitinin formalaşmasında, görülən işlərin keyfiyyətinin, səmərəliliyinin artmasında, eləcə də fərman, sərəncam və tapşırıqlar üzrə nəzərdə tutulan fəaliyyətlərin vaxt əsaslı həyata keçirilməsində mühüm rol oynayacaq. "Hesabatlar" altsistemi vasitəsilə bütün altsistemlər üzrə ümumi aqreqatlaşdırılmış hesabatların əldə olunması təmin ediləcək. Bu da öz növbəsində müxtəlif dövlət qurumları üzrə ümumi icra göstəricilərinin müəyyən olunmasına şərait yaradır.

Elektron İnformasiya sistemləri sənəd dövriyyəsinin və digər kargüzarlıq işlərinin kağızsız əsasda aparılmasını təşviq edir. İnformasiya sistemində bütün əməliyyatların elektron imzalar vasitəsilə aparılması informasiya təhlükəsizliyinin təmin olunmasında mühüm əhəmiyyət kəsb edir.



Elektron informasiya-nəzarət sistemləri həmçinin səmərəli layihə və proqram idarəetməsinin həyata keçirilməsində mühüm rola malikdir. Bu elektron sistemlər layihə və proqramların icrasının elektron qaydada monitorinqi, inkişaf məqsədlərinə nail olunması və nəticələrin izlənilməsi, çatışmazlıqlar və boşluqlar barədə preventiv xəbərdarlıqların verilməsi vasitəsilə problemlərin və məhdudiyyətlərin həllinə yeni baxış bucağı gətirir. Bu kimi elektron sistemlərin yaradılması həmçinin istifadəçilərə məlumatlara anında giriş imkanı yaradan mərkəzləşdirilmiş informasiya bazasına əlçatanlığı təmin edir.

Belə bir İnformasiya sisteminin yaradılması effektiv, şəffaf və nəzarət oluna bilən idarəetmə strukturunun formalaşdırılmasına imkan verməklə yanaşı, eləcə də dövlət idarəçiliyində həyata keçirilən islahatların nəticəliliyinin artırılmasında böyük rola malikdir. Digər qeyd olunması vacib məsələ Elektron İnformasiya Nəzarət Sisteminin yaradılmasının Böyük Verilənlər (Big Data) bazasının formalaşmasına imkan verməsidir. Gələcəkdə bu verilənlər bazasının yeni qəbul ediləcək layihələrin, proqramların hazırlanmasında və bu istiqamətdə proqnoz göstəricilərinin müəyyən olunmasında istifadəsi mümkündür. Yaradılacaq Dövlət Nəzarəti İnformasiya Sistemi real vaxt rejimində hesabatlılığın təmin olunmasını, performans qiymətləndirməsinin aparılmasını, dövlət nəzarəti prosesinin keyfiyyətinin artırılmasını və informasiya mübadiləsinə sərf olunan vaxt müddətinin azaldılmasını vəd edir.

Beynəlxalq təcrübədə dövlət idarəçiliyində informasiya sistemlərinin yaradılması aşağıdakı məsələləri əhatə edir və mərhələli formada həyata keçirilir.

■ Strategiyanın müəyyən olunması: Dövlət idarəçiliyində informasiya texnologiyalarının effektiv istifadəsini təmin edən strategiyanın müəyyən edilməsi və bu sahəyə investisiyaların cəlb edilməsini nəzərdə tutur. Bu proses özündə qısa, orta və uzunmüddətli dövr üçün ayrıca müəyyən edilən məsələləri ehtiva etməklə mərhələli olaraq həyata keçirilir. Qeyd etmək lazımdır ki, Dövlət Nəzarəti İnformasiya Sisteminin yaradılması ilə bağlı Fərman ölkəmizdə hökumət xidmətlərinin elektronlaşdırılması istiqamətində qəbul edilən bir çox hüquqi-normativ aktlardan biridir. Bu normativ-hüquqi aktlar "Elektron Azərbaycan" konsepsiyasının tərkib hissəsi kimi qəbul edilir. Yeni yaradılacaq informasiya sistemi də bu sahədə aparılan tədbirlərin məntiqi davamı kimi qiymətləndirilməlidir.

■ Dövlət informasiya sistemlərinin məqsədlərinin müəyyən edilməsi: Beynəlxalq təcrübədə bu məqsədlər əsasən aşağıdakı istiqamətlərdə müəyyən edilir.

□ Səmərəliliyin artırılması - təqdim edilən dövlət xidmətlərin keyfiyyətinin artırılmasını nəzərdə tutur;

□ Dövlət idarəetməsində menecmentin və əməkdaşlığın təkmilləşdirilməsi;

İnformasiya sistemlərindən əldə olunan məlumatlar əsasında qərar qəbulu prosesinin təkmilləşdirilməsi;

□ Dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi.

■ Prioritetlərin müəyyən edilməsi: Dövlət informasiya sistemləri üçün destruktiv əngəlləri aradan qaldıran və əməkdaşlığı təmin edən prioritetlər sisteminin müəyyən edilməsini nəzərdə tutur. Prioritetlər dövlət tərəfindən həyata keçirilən tədbirlərin yenidən təşkilini və informasiya sistemləri arasında daxili əlaqənin səmərəliliyinin təmin olunmasına yönəlməlidir.

■ Müvafiq instusional çərçivənin müəyyən olunması: İnformasiya sistemlərinin inkişafı məqsədilə mərkəzləşdirmə və əks-mərkəzləşdirmə məsələləri mərkəzi hökumətin rolu nəzərə alınaraq həyata keçirilməlidir.

Qeyd etmək lazımdır ki, hökumət informasiya sistemlərinin yaradılmasını nəzərdə tutan qərarlar həyata keçirilə bilən və praktiki olmalıdır. Bu, eləcə də özündə lokal hökumətin xüsusiyyətlərini əks etdirməli və hökumətin imkanları çərçivəsində müəyyən edilməlidir.

Əvvəldə qeyd olunduğu kimi dövlət informasiya sistemlərinin yaradılması istiqamətində həyata keçirilən tədbirlər Azərbaycanda davamlı olaraq elektron hökumət strukturunun daha da təkmilləşdirilməsi məqsədini nəzərdə tutaraq uğurla davam etdirilir. Yaradılan sistemlər vahid elektron hökumət konsepsiyasının tərkib hissələri olmaqla dövlət idarəetməsinin informasiya texnologiyalarını tətbiq etməklə restrukturizasiya edilməsində mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, Dövlət Nəzarəti İnformasiya Sisteminin yaradılması dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqini genişləndirməklə səmərəliliyin, koordinasiyanın və effektiv dövlət nəzarətinin təmin olunmasına imkan verəcək.

## İSTİFADƏ EDİLƏN MƏNBƏLƏR

1. Dövlət Nəzarəti İnformasiya Sisteminin iş Qaydası. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir
https://president.az/articles/50450
2. Government İnformation Systems. A guide to effective use of information technology in the public sector of developing countries. United Nations. New York 1995.
https://publicadministration.un.org/publications/content/PDFs/E-Library%20Archives/1995%20Government%20Information%20Systems.pdf